# GÜRCÜSTAN

SAYI 57-58 (13.427)
CÜMƏ 25 İYUL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru   www.gurcustan.com   E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİR AZƏRBAYCAN XİN RƏHBƏRİ İLƏ GÖRÜŞÜB



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüş keçirib.***

Bu barədə Hökumət Administrasiyası məlumat yayıb.

Bildirilib ki, görüş zamanı Gürcüstan-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslandığı xüsusi vurğulanıb.

Qeyd olunub ki, son illər iki ölkə arasında əlaqələrin dinamik şəkildə inkişaf etməsi sevindirici haldır.

Tərəflər regional əhəmiyyətə malik birgə infrastruktur və enerji layihələrinin Orta Dəhlizin inkişafında oynadığı rolu müzakirə ediblər.

Görüşdə, həmçinin, ticarət - iqtisadi əlaqələrin genişləndirilməsi və iki ölkə arasında ticarət dövriyyəsində artımın müşahidə olunması müsbət qiymətləndirilib.

Söhbət zamanı Cənubi Qafqaz regionunda mövcud vəziyyətə də toxunulub.

Baş nazir İrakli Kobaxidze bir daha Gürcüstanın dialoq və əməkdaşlıq yolu ilə regionda sülh və sabitliyin bərqərar olunmasına töhfə verməyə hazır olduğunu bəyan edib.

Görüş çərçivəsində Azərbaycan və Gürcüstan arasında əlaqələrin müxtəlif sahələr üzrə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## MİXEİL KAVELAŞVİLİ CEYHUN BAYRAMOVLA GÖRÜŞÜB



***Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüş keçirib.***

Bu barədə məlumatı Gürcüstan Prezidentinin Administrasiyası yayıb.

Görüş zamanı tərəflər Gürcüstan və Azərbaycan arasında mövcud olan dostluq, tərəfdaşlıq və iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə dərinləşdirilməsi və inkişaf perspektivlərini müzakirə ediblər.

Prezident Mixeil Kavelaşvili bildirib ki, iki ölkə arasında qurulmuş dostluq və sıx əməkdaşlıq modeli örnək təşkil edir və bu münasibətlər qarşılıqlı inam, hörmət, bərabərlik və milli maraqlara hörmət prinsiplərinə əsaslanır. Prezident, həmçinin Azərbaycan tərəfinə Gürcüstanın ərazi bütövlüyü və suverenliyinə göstərdiyi dəyişməz dəstəyə görə təşəkkürünü bildirib.

*"Azərbaycanın xarici işlər naziri ilə çox məhsuldar görüş keçirdik. Bildiyiniz kimi, Gürcüstan və Azərbaycan strateji tərəfdaşdır. Biz birgə bir sıra əhəmiyyətli layihələrdə iştirak edirik və bir çox məsələdə ortaq mövqedəyik. İqtisadi sahədə də maraqlı layihələrin həyata keçirilməsi planlaşdırılır. Hər zaman vurğulayıram ki, bizim münasibətlərimiz nümunəvidir və əminəm ki, bu əlaqələr daha da möhkəmlənəcək və inkişaf edəcək",* – deyə Prezident görüşdən sonra bildirib.

## Ş.PAPUAŞVİLİ:"AVROPA SƏFİRİ DEYİR Kİ, VİZASIZ GEDİŞ-GƏLİŞ SENTYABRDAN DAYANDIRILA BİLƏR, BU DEZİNFORMASİYADIR"

***Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili bəyan edib ki, Avropa İttifaqının (Aİ) vizasız rejimi siyasi təzyiq vasitəsinə çevrilməkdədir.*** Onun sözlərinə görə, bu təzyiqin əsas məqsədi Gürcüstanda hakimiyyət dəyişikliyinə nail olmaqdır.

Ş. Papuaşvili bu barədə "Birinci Kanal"ın efirində qeyd edib.

O bildirib ki, bəzi qanunlar Aİ və ya digər dairələr tərəfindən bəyənilməsə də, bu narazılığı vizasız rejimlə əlaqələndirmək hüquqi baxımdan əsassızdır:

*"Bu, adi özbaşınalıqdır. 61 ölkə ilə Aİ vizasız rejimə malikdir. Gəlin baxaq – hansı ölkədə insan haqları Gürcüstandan daha yaxşı qorunur?"* – deyə parlament sədri vurğulayıb.

Ş. Papuaşvili Avropa Parlamentinin son qətnaməsinə də toxunaraq bildirib ki, sənəd Aİ-nin genişlənmə üzrə komissarı xanım Kosi və Rasa Yuknyaviçene tərəfindən hazırlanıb və orada "Gürcü xalqının seçiminin tanınmadığı" açıq şəkildə qeyd olunur.

Onun sözlərinə görə, Gürcüstan vizasız rejim çərçivəsində hər il Aİ-nin tələblərinə uyğun hesabatlar təqdim edir və bu proses uğurla davam edir. Ölkədə miqrasiya qanunvericiliyi sərtləşdirilib, qeyri-qanuni miqrantların deportasiyası asanlaşdırılıb və korrupsiyaya qarşı tədbirlər gücləndirilib.



Lakin Ş. Papuaşvili hesab edir ki, indi məsələyə siyasi çalarlar əlavə olunub:

*"Birdən-birə ortaya çıxdı ki, kiməsə Gürcüstandakı ailə dəyərləri və şəffaflıq prinsipləri xoş gəlmir. Amma bunların vizasız rejimlə heç bir əlaqəsi yoxdur",* – deyə o bildirib.

Şalva Papuaşvili Avropa İttifaqının Gürcüstandakı səfirinin 31 avqustu vizasız rejim üçün son tarix kimi təqdim etməsini isə "tam dezinformasiya" adlandırıb:

*"Nə məktubda tarix göstərilib, nə də bu, rəsmi sənəddir. Aİ-də belə qərarlar bu cür qəbul olunmur. Bu mövzu sadəcə müxalifətə "mövzu" vermək üçündür. Onlar ideyasız qalıblar və bu məsələ ilə ictimaiyyəti çaşdırmağa çalışırlar",* – deyə Ş. Papuaşvili qeyd edib.

Parlament sədri əlavə edib ki, Gürcüstan vizasız rejimin şərtlərinə tam əməl edir və hazırda hər hansı təhlükə mövcud deyil.

## M. BOÇORİŞVİLİ: BAKI VƏ İRƏVAN ARASINDA SÜLH SAZİŞİNİN YAXIN ZAMANDA İMZALANACAĞINA ÜMİD EDİRİK

***Gürcüstan Azərbaycan və Ermənistan arasında dialoqu diqqətlə izləyir və yaxın zamanda sülh sazişinin imzalanacağına ümid edir.***



Bunu Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili Tbilisidə azərbaycanlı həmkarı Ceyhun Bayramovla birgə mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, Gürcüstan Cənubi Qafqaz regionunda sülh və sabitliyin möhkəmləndirilməsində maraqlıdır.

M. Boçorişvili, həmçinin bu il aprelin 17-də Ermənistan, Azərbaycan və Gürcüstanın xarici işlər nazirlərinin müavinləri Vahan Kostanyan, Elnur Məmmədov və Laşa Darsalianın iştirakı ilə üçtərəfli formatda keçirilən danışıqları xatırladıb. Gürcüstanın xarici işlər naziri qeyd edib ki, bu formatın potensialı var.

## GÜRCÜSTAN AZƏRBAYCAN SƏFİRLİYİNƏ ƏLAVƏ ƏRAZİ AYIRDI



***Gürcüstanın Baş naziri İrakli Kobaxidze 49 illik müddətə Tbilisidə Azərbaycan səfirliyinə əlavə 69 kvadratmetr ərazinin ayrılması barədə sərəncam imzalayıb.***

Bu barədə sənəd Gürcüstan hökumətinin saytında dərc olunub.

*"Sahəsi 69 kvadratmetr olan, dövlət mülkiyyətində olan və kənd təsərrüfatı təyinatlı olmayan torpaq sahəsi Azərbaycan Respublikasının səfirliyinə 49 illik tikinti hüququ ilə təmənnasız verilsin",* - deyə sərəncamda qeyd olunur.

Sənəddə səfirliyə ayrılan torpaq sahəsinin kadastr nömrəsi də göstərilir. Bələdiyyə Xidmətlərinin İnkişafı Agentliyinin xəritəsinə əsasən, söhbət Tbilisidəki Qorqasali küçəsində yerləşən diplomatik nümayəndəliyin yaxınlığındakı sahədən gedir.

## ABŞ UNESCO-DAN ÇIXIR



***ABŞ Prezidenti Donald Tramp Birləşmiş Ştatların UNESCO-dan çıxması barədə qərar qəbul edib.***

Bu barədə Ağ Evin mətbuat katibinin müavini Anna Kelli bildirib.

*"Prezident Donald Tramp ABŞ-ni UNESCO-dan çıxarmaq qərarına gəlib. Çünki təşkilat ABŞ maraqlarına uyğun olmayan təşəbbüsləri dəstəkləyir",* - o, "New York Post" qəzetinə şərhində bildirib.

A. Kelli əlavə edib ki, Tramp administrasiyası *"ölkənin bütün beynəlxalq təşkilatlarda üzvlüyünün ABŞ-nin milli maraqlarına uyğun olmasını"* diqqətlə izləyir.

*"Bundan əlavə, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) öz İcraiyyə Şurasından "anti-İsrail və anti - yəhudi təşəbbüsləri" təşviq etmək üçün istifadə edib",* - deyə mətbuat katibinin müavini iddia edir.

# BAŞ NAZİR YAY DÜŞƏRGƏSİNDƏ İSTİRAHƏT EDƏN UKRAYNALI ŞAGİRDLƏRLƏ GÖRÜŞÜB



*Baş nazir İrakli Kobaxidze Təhsil, Elm və Gənclər naziri Qivi Mikanadze, Xarici İşlər naziri Maka Boçorişvili və Parlamentin Ukrayna ilə Dostluq*

***Qrupunun rəhbəri Qiorqi Kaxiani ilə birlikdə Gürcüstan hökumətinin maliyyə dəstəyi ilə təşkil olunmuş yay düşərgəsində istirahət edən ukraynalı şagirdlərlə görüşüblər.***

Bu barədə hökumət administrasiyası məlumat yayıb.

Məlumata əsasən, görüş zamanı Baş nazir və nazirlər uşaqlarla səmimi söhbətlər aparıb, onları axşam yeməyinə dəvət ediblər.

Qeyd edək ki, düşərgə 30 iyun – 20 iyul tarixləri arasında iki qrup halında Ukraynadan gəlmiş uşaqları qəbul edib. Düşərgədə iştirak edənlər arasında Ukrayna Silahlı Qüvvələri hərbçilərinin və müharibədə həlak olmuş döyüşçülərin övladları da iştirak edir.

İki həftəlik proqram çərçivəsində şagirdlər müxtəlif mədəni, maarifləndirici və əyləncəli tədbirlərə qatılır, Tbilisi, Siqnaxi və Bodbedə təşkil olunmuş ekskursiyalarda iştirak ediblər.

# GÜRCÜSTAN PATRİARXLIĞI AVROPA KOMİSSİYASININ TÖVSİYƏLƏRİNƏ ETİRAZ BƏYANATI YAYIB

***Gürcüstan Patriarxlığı Avropa Komissiyasının Gürcüstana verdiyi son tövsiyələrlə bağlı bəyanat yayıb.***



Bəyanatda Avropa ilə inteqrasiya prosesində ölkənin xristian və ənənəvi ailə dəyərlərinin təhlükə altına düşdüyü vurğulanıb.

Patriarxlığın mövqeyinə görə, Avropa Komissiyasının Gür-cüstana LGBT (lezbiyan, gey, biseksual və transgender sözlərinin birləşməsindən yaranmış bir abreviaturadır) təbliğatına qarşı qəbul edilən qanunvericiliyin ləğvini tövsiyə etməsi cəmiyyətdə ciddi narahatlıq doğurur:

*"Bu yanaşma həm Gürcüstan Pravoslav Kilsəsinin, həm də Avropa İttifaqı ölkələrinin nümayəndələri ilə keçirilmiş görüşlərdə verilmiş vədlərlə ziddiyyət təşkil edir. İndiyədək Gürcüstanın Avropaya inteqrasiyası prosesində qeyri-ənənəvi həyat tərzinin təbliğinə dair heç bir məcburiyyət olmayacağı bildirilib"*, – deyə bəyanatda qeyd olunur.

Patriarxlıq xatırladır ki, Gürcüstanın Katolikos - Patriarxı II İlia ilə keçirilən rəsmi görüşlərdə xalqın iradəsinin xristian dəyərlərinin və ənənəvi ailə modelinin qorunması olduğu dəfələrlə vurğulanıb. Həmçinin bildirilib ki, bu istiqamətdə qəbul edilmiş qanunlar ictimaiyyət və kilsə tərəfindən dəstəklənib.

Bəyanatda Avropa Komissiyasının yeni tövsiyələrinin ölkə daxilində Avropa dəyərləri ilə bağlı məyusluq yaratdığı qeyd edilir:

*"Bir tərəfdən ailə ənənələrinin qorunması və yeniyetmələrin LGBT təbliğatından müdafiəsi istənilir, digər tərəfdən isə bu qanunların ləğvi Avropa ilə inteqrasiyanın şərti kimi irəli sürülür. Bu isə əhalinin böyük hissəsində çaşqınlıq və narazılıq doğurur."*

Patriarxlıq vurğulayıb ki, Gürcüstanın Avropaya inteqrasiyası yalnız xalqın dəyərlərinə hörmət əsasında davam etdirilməlidir.

# GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ ARTIB

***2025-ci ilin yanvar-iyun aylarında ölkənin xarici ticarət dövriyyəsi (bəyannaməsiz ticarət istisna olmaqla) 11 milyard 934 milyon ABŞ dolları təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 12.8% çoxdur.***

Bu barədə Gürcüstanın Milli Statistika Xidməti (Sakstat) məlumat yayıb.

Bu dövrdə ixracın həcmi 3 milyard 234.7 milyon dollar olub ki, bu da 13.7% artım deməkdir. İdxal isə 8 milyard 699.3 milyon dollara çatıb – burada da 12.4% artım qeydə alınıb.

2025-ci ilin ilk altı ayında Gürcüstanın xarici ticarət balansı mənfi 5 milyard 464.6 milyon dollar təşkil edib. Bu, ümumi xarici ticarət dövriyyəsinin 45.8%-nə bərabərdir.

Hesabatda qeyd olunur ki, bu dövrdə Gürcüstanın ümumi xarici ticarət dövriyyəsinin 69.3 % - i 10 əsas ticarət tərəfdaşı ölkənin payına düşüb. Ən böyük ticarət tərəfdaşları aşağıdakılardır:

Türkiyə – 1 milyard 464.6 milyon ABŞ dolları
ABŞ – 1 milyard 324.6 milyon ABŞ dolları
Rusiya – 1 milyard 282.9 milyon ABŞ dolları

Statistika göstərir ki, Gürcüstanın əsas iqtisadi tərəfdaşları ilə ticarət əlaqələri sabit şəkildə genişlənməkdə davam edir.

# AVQUSTUN 1-DƏN ETİBARƏN YENİ VERİLƏCƏK ŞƏXSİYYƏT VƏSİQƏLƏRİNDƏ BARMAQ İZİ DƏ OLACAQ




***Ədliyyə Nazirliyi 10 mart tarixində yeni dizaynlı şəxsiyyət vəsiqələrinin və pasportların verilməsi barədə qərar qəbul edib.***

Əvvəlcə dəyişiklik iyunun 4 - də qüvvəyə minməli olsa da, nazirlik müddəti avqustun 1- dək uzadıb.

Nazirliyin son qərarına əsasən, avqustun 1-dən yeni dizaynda olan elektron şəxsiyyət vəsiqələri, biometrik pasportlar, diplomatik və xidməti pasportlar, həmçinin müvəqqəti və daimi yaşayış üçün elektron vəsiqələr istifadəyə veriləcək.

Yeni şəxsiyyət vəsiqələrində QR kod və sahibin barmaq izi də olacaq. Bu vasitələrlə sənəd və ya sahib haqqında məlumatlar daha rahat yoxlanıla biləcək.

Əvvəllər verilmiş köhnə sənədlər isə qanunvericilikdə nəzərdə tutulan müddətə qədər qüvvədə qalacaq.

Yeni dizaynlı biometrik pasportlarda sahibin adı, soyadı, vətəndaşlığı, doğum tarixi, şəxsi nömrəsi, fotoşəkili, cinsi, doğum yeri, imza nümunəsi və digər vacib məlumatlar yer alacaq.

# KƏRBƏLAYA ZİYARƏT TƏŞKİL EDİLƏCƏK

***Hz. Məhəmməd Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseynin (ə) "Ərbəin" mərasimi münasibətilə Gürcüstandan İraqa ziyarət səfəri təşkil olunacaq.***



Ənənəyə uyğun olaraq bu il də İmam Hüseynin (ə) qırx mərasimində iştirak etmək istəyən əzadarlar Kərbəlaya axın edəcəklər.

Marneulidən ilahiyyatçı və imamcümə Hacı Mirismayıl Əsədovun təşkilatçılığı ilə də ziyarət proqramı həyata keçiriləcək.

**Ziyarətə daxildir:**

İraqın Nəcəf, Kərbəla, Kazimeyn və Samirra şəhərlərindəki müqəddəs ziyarətgahların ziyarəti.

**Nəqliyyat seçimləri və qiymətlər:**

- *Avtobusla:* Gediş tarixi – 4 avqust 2025 | Qiymət – 400 ABŞ dolları;
- *Təyyarə ilə:* Gediş tarixi – 8 avqust 2025 | Qiymət – 800 ABŞ dolları;

Ziyarətdə iştirak etmək istəyənlər sənədlərini iyulun 30-dək təqdim etməlidirlər.

*Əlaqə nömrəsi:* ***+995 558 014 014***

## Sitat guşəsi



"ABŞ-nin milli təhlükəsizlik rəhbəri Tulsi Qabbard sübutlarla təsdiqləyib ki, Donald Trampa qarşı Amerikanın seçkilərinə Rusiyanın müdaxiləsi ilə bağlı ittihamlar Barak Obama tərəfindən uydurulub".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Saakaşvili dünyada demensiyadan sağalan ilk xəstə oldu, bəs Brüsseldən və ya onun səfirindən üzrxahlıq eşitdinizmi? Yox! Atılan böhtanlara görə peşmanlıq ifadə edən oldumu? Yenə də yox!"

**Şalva Papuaşvili,**
**Gürcüstan Parlamentinin sədri.**



"Suriyanın şimalı ilə cənubu arasında dəhliz yaratma xəyalları quranlar məqsədlərinə çata bilməyəcəklər. Dünən olduğu kimi, bu gün də Suriyanın parçalanmasına razı ola bilmərik. Qonşumuzun ərazi bütövlüyünün qorunması bizim əsas siyasətimizdir. Suriyanın parçalanmasına nə keçmişdə razı olduq, nə də bundan sonra razı olacağıq".

**R.T. Ərdoğan,**
**Türkiyənin Prezidenti.**



"Bizə hər şey aydındır. Nə baş verdiyini bilirik və bunu sübut edə bilərik. Həmçinin rus rəsmilərinin də baş verənlərdən xəbərdar olduğunu bilirik".

**İlham Əliyev,**
**Azərbaycanın Prezidenti.**



"Bu davranışı ilə Ktritç Nersisyan bizi – Erməni Apostol Kilsəsinin sədaqətli davamçılarını – onu patriarxlıqdan uzaqlaşdırmağa çağırır. Biz bunu birlikdə edəcəyik. Hazır olun".

**Nikol Paşinyan,**
**Ermənistanın Baş naziri.**



"Hazırda zənginləşdirmə prosesi dayandırılıb, çünki obyektlər ciddi zərər görüb. Amma biz bu işdən vaz keçmək fikrində deyilik. Bu, alimlərimizin nailiyyətidir və eyni zamanda milli qürur məsələsidir",

**Seyid Abbas Araqçi,**
**İranın xarici işlər naziri.**

## REGİON XƏBƏRLƏRİ

### Marneuli: "MARNEULİ KLUBLARARASI REGİONAL ŞAHMAT TURNİRİ" KEÇİRİLİB



**20 iyul 2025-ci il tarixində Beynəlxalq Şahmat Günü münasibətilə "Tea House"da "Marneuli Klublararası Regional Şahmat Turniri" keçirilib.**

Turnir "SOCAR" ın dəstəyi ilə baş tutub.

Turnirdə Marneuli, Qaraçöp və Bolnisi rayonları və kəndlərindən ümumilikdə 14 komandada 70 gənc şahmatçı iştirak edib.

Oyundan əvvəl tədbiri giriş sözü ilə açan "İnkişaf və Təhsil Mərkəzi"nin rəhbəri Emin Əhmədov iştirakçılara tədbir haqda məlumat verib, gələcək fəaliyyətlərdən danışıb. "Aktual Media" rəhbəri İlkin Hüseynov öz çıxışında "İnkişaf və Təhsil Mərkəzi" və "Aktual Media"nın yeni fəaliyyətə başlayan və birgə layihəsi olan "Şahmat TV" layihəsindən danışıb. Layihənin "Aktual.ge" də aparıcısı Qasım Əliyev azərbaycanlı şahmatçı Vüqar Həşimovun ən uğurlu oyunlarının təhlilini əyani olaraq tədbir iştirakçılarına çatdırıb. Oyunlardan sonra təşkilatlar arasında "Şahmat TV" layihəsinin fəaliyyətə başlaması ilə bağlı memorandum imzalanıb. Yeddi turdan ibarət olan turnirdə 1 - ci yerin qalibi yeddi balla "Qaraçöp I", 2 - ci yerin qalibi altı balla "Tea House I", 3 - cü yerin qalibi isə beş balla "Tea House II" komandaları olub.

Qaliblərə kubok, diplomlar, medallar və hədiyyələr təqdim olunub.

### Bolnisi: AZƏRBAYCANDİLLİ KİTAB EVİ AÇILIB



**Bolnisi Bələdiyyəsində fəaliyyət göstərən "Parlaq Gələcək Gənclər Mərkəzi"nin nəzdində yaradılmış ilk və ən böyük Azərbaycandilli kitab evi artıq bir ildir ki, bölgə gənclərinə xidmət göstərir.**

Sözügedən mərkəzdən bildirilib ki, bu kitab evi yüzlərlə gəncə müxtəlif mövzularda faydalı və maraqlı ədəbiyyatla tanış olmaq fürsəti yaradıb.

*"Hazırda kitab evində 5 minə yaxın kitab mövcuddur. Yenilənmiş və səliqəli rəflər sayəsində bu kitablar oxucular üçün daha əlçatan və rahat şəkildə təqdim olunur. Layihənin əsas məqsədi gənclərdə kitaba maraq yaratmaq, oxuma vərdişini gücləndirmək və maariflənməyə dəstək olmaqdır.*

*Parlaq Gələcək Gənclər Mərkəzi məktəblər və digər təşkilatlarla əməkdaşlığa açıqdır. Onlar müraciət etdikdə, kitablar hədiyyə olaraq təqdim olunur – bu isə bölgədə oxu mədəniyyətinin genişlənməsinə töhfə verir.*

*Mərkəzin komandası inanır ki, birlikdə oxuyan, öyrənən və inkişaf edən cəmiyyət güclü gələcəyin təməlidir. Bu istiqamətdə atılan addımlar davam etdiriləcək və daha çox gəncə kitab sevgisi aşılanacaq"*, - deyə mərkəzin rəhbəri Araz Musayev bildirib.

### Telavi: QIZLAR ARASINDA HƏNDBOL ÜZRƏ AVROPA ÇEMPİONATI BAŞA ÇATIB



**Telavidə 19 yaşadək qızlar arasında həndbol üzrə Avropa çempionatı başa çatıb.**

Ukrayna və Slovakiya millilərinin üz-üzə gəldiyi final oyunu Ukraynanın qələbəsi ilə başa çatıb.

Gürcüstanın idman naziri Şalva Qoqoladze, nazir müavini İrakli Medzmariaşvili, Telavi bələdiyyəsinin meri Levan Andriaşvili, şəhər şurasının sədri Tenqiz Mtvarelişvili, Gürcüstan Həndbol Federasiyasının prezidenti Vaxtanq Meipariani və Avropa Həndbol Federasiyasının nümayəndəsi tədbirdə iştirak edib.

Çempionatın bağlanış mərasimində Telavi Bələdiyyəsinin "Martve" mahnı və rəqs ansamblı, "Çakrulo" və "Şemodjili" ansamblları iştirak ediblər.

### Rustavi: "YAY İDMAN AKADEMİYASI" KEÇİRİLİR



**Rustavi meriyası daha bir idman və maarifləndirici layihə həyata keçirir.**

İyulun sonuna kimi Rustavi İdman Sarayında "Yay İdman Akademiyası" keçirilir.

Layihədə 7-12 yaş arası yeniyetmələr iştirak edir.

Yay İdman Akademiyasının məqsədi yeniyetmələrin müxtəlif idman növlərinə maraq göstərməsidir və idman fəaliyyətləri ilə yanaşı, buraya tanınmış idmançılarla görüşlər, maarifləndirici dərslər və əyləncə proqramları da daxildir.

Rustavi Yay İdman Akademiyası yeniyetmələrin ikinci partiyasını qəbul edir və iyulun 29-da bağlanacaq.

Rustavi şəhərinin meri Nino Latsabidze yay idman düşərgəsinə cəlb olunmuş yeniyetmələrlə görüşmüş, "İdman İnkişaf Mərkəzi"nin rəhbəri Qiorqi Demetraşvili ilə birlikdə onlara sertifikatlar təqdim etmiş, idman - maarifləndirici muzeyini gəziblər.

## BEYNƏLXALQ HƏYAT

### İRAN VƏ "AVROPA ÜÇLÜYÜ" NÜVƏ PROQRAMI ÜZRƏ DANIŞIQLARI BƏRPA EDİR



**İran üç Avropa ölkəsi - Almaniya, Fransa və Böyük Britaniya ilə nüvə problemi üzrə danışıqların keçirilməsi barədə razılığa gəlib.**

Bu barədə "Tasnim" dövlət agentliyi öz mənbələrinə istinadən xəbər verir.

*"Danışıqların formatı razılaşdırılıb, lakin onların keçirilmə vaxtı və yeri ilə bağlı müzakirələr davam edir"*, - deyə mənbə qeyd edib.

Bildirilir ki, bu danışıqların İran və üç Avropa ölkəsinin xarici işlər nazirlərinin müavinləri səviyyəsində keçirilməsi planlaşdırılır.

### "PUTİN MÜHARİBƏNİ BİTİRMƏYƏ HAZIRLAŞIR" - ANALİTİKDƏN GÖZLƏNİLMƏZ AÇIQLAMA



**"Rusiya Prezidenti Vladimir Putin böyük ehtimalla bu il Ukraynaya qarşı müharibəni başa çatdıracaq".**

Xarici mətbuata istinadən xəbər verilir ki, bu sözləri avstraliyalı hərbi analitik Mayk Ryan deyib.

Onun sözlərinə görə, Rusiya iqtisadiyyatı mövcud müharibə yükünü uzun müddət daşıya biləcək durumda deyil:

*"Hazırda Moskva ciddi problemlərlə üzləşib və bu çətinliklərin müharibə davam etdikcə tez bir zamanda həlli mümkün görünmür. Buraya iqtisadi çətinliklər, Quru Qoşunlarının döyüş qabiliyyətinin əhəmiyyətli dərəcədə zəifləməsi, ordunun tələbatını qarşılamaq üçün Şimali Koreya və Çindən artan asılılıq, həmçinin ABŞ Prezidentindən gələn siyasi təzyiqlər daxildir".*

Analitik qeyd edib ki, Putin bu ilin iyununda verdiyi açıqlamada 2025-ci ildən etibarən hərbi xərclərin azaldılacağını bəyan etməklə, faktiki olaraq müharibəni güclü mövqedə yekunlaşdırmaq üçün hazırda bütün mövcud resursları səfərbər etdiyini göstərir.

### POLŞA VƏTƏNDAŞLARINA RUSİYANI TƏRK ETMƏYİ TÖVSİYƏ EDİB



**Polşa Xarici İşlər Nazirliyi vətəndaşlarına Rusiya Federasiyasının ərazisini tərk etməyi tövsiyə edib.**

Nazirliyin yaydığı rəsmi bəyanatda bildirilir ki, bu çağırış Ukraynada davam edən müharibə və Rusiya rəhbərliyinin Polşanı "düşmən dövlət" elan etməsi ilə bağlıdır.

Bəyanatda deyilir: *"Xarici İşlər Nazirliyi Rusiyaya istənilən səfərlərə qarşı xəbərdarlıq edir. Polşa vətəndaşlarına tövsiyə olunur ki, əgər şəxsi, ailəvi və ya peşəkar zərurət yoxdursa, ölkəni mümkün olan kommersiya və ya özəl yollarla tərk etsinlər".*

Nazirlik əlavə edib ki, Rusiyada Polşa diplomatik və konsulluq heyətinin ciddi şəkildə azaldılması, Sankt-Peterburq və Kaliningrad (Königsberg) şəhərlərindəki baş konsulluqların fəaliyyətinə icazələrin ləğv edilməsi ilə əlaqədardır. Bu səbəbdən vətəndaşlara konsulluq yardımı göstərmək getdikcə daha çətinləşir və bəzi hallarda çox uzaq konsulluqlara müraciət zərurəti yarana bilər.

Sənəddə həmçinin bildirilir ki, təhlükəsizlik vəziyyətinin kəskin pisləşməsi, sərhədlərin bağlanması və digər gözlənilməz hallar zamanı təxliyə prosesi ya xeyli çətinləşə, ya da ümumiyyətlə mümkün olmaya bilər.

### PEZEŞKİAN: "BU HÜCUM BAŞ VERƏRSƏ, İSRAİLİ VURACAĞIQ"



**İsrail İran ərazisinə yenidən hücum edərsə, onun hədəflərinə zərbələr endiriləcək.**

Bu sözləri İran Prezidenti Məsud Pezeşkian "Əl-Cəzirə" telekanalına müsahibəsində deyib.

*"Biz İsrailin hərbi addımlarına qarşı tam hazırıq və qüvvələrimiz yenidən onun ərazisinə zərbələr endirə bilər. Biz müharibə istəmirik və atəşkəsin daimi olacağını gözləmirik"*, – deyə Pezeşkian qeyd edib.

Tərəflərin eskalasiya zamanı bir-birinə güclü zərbələr endirdiyini əlavə edən İran prezidenti vurğulayıb ki, İsrail öz itkilərini gizlədir:

*"İsrail raket zərbələrimizin effektivliyi barədə danışmağa imkan vermir, lakin onun müharibənin dayandırılmasını istəməsi çox şeyi deyir".*

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*21 iyul 2025-ci il* **"SAKARTVELOS RESPUBLİKA"**

### "Laqidze" komandası Avropa çempionudur

"Revaz Laqidze adına musiqi məktəbinin qızlar komandası böyük uğur əldə edib – komanda "European Choir Games & Grand Prix of Nations Aarhus 2025" musiqi müsabiqəsinin qalibidir", - deyə "Laqidze komandası" məlumat yayıb.

Məlumatda komandanın iki qızıl medal və Avropa çempionu titulunu qazandığı da qeyd edilib.

"Müsabiqə 28 iyun – 6 iyul 2025-ci il tarixində Danimarkanın Orhus şəhərində keçirilib. Tədbir Avropanın ən böyük xor müsabiqəsi olub. Bu il müsabiqədə 35 ölkədən 130-dan çox komanda iştirak edib. "Laqidze" komandası müsabiqədə uğurla çıxış edərək, beynəlxalq münsiflər heyətinin və tamaşaçıların xüsusi rəğbətini qazanıb.

Komandanın çıxışı tamaşaçılarda unudulmaz təəssürat yaradıb, peşəkarlıq və gürcü musiqi kimliyi isə komandanın qələbə qazanmasına səbəb olub.

"Interkultur" 30 ildən artıqdır ki, bütün dünyada müxtəlif komanda müsabiqələri təşkil edən alman komanda cəmiyyətidir. Tarixdə ilk dəfə olaraq Gürcüstanın dövlət himni səsləndirilib ki, bu da Gürcüstan və qalib komanda üçün tarixi və emosional an olub. "Laqidze" komandasının uğuru gürcü musiqisinin beynəlxalq təqdimatına və ölkənin mədəni imicinin möhkəmləndirilməsinə doğru atılmış daha bir mühüm addımdır.

*23 iyul 2025-ci il* **"KVİRİS PALİTRA"**

### Beynəlxalq Valyuta Fondu : "Gürcüstanın maliyyə sektoru yaxşı vəziyyətdədir..." (ixtisarla)

Beynəlxalq Valyuta Fondunun hesabatına görə Gürcüstanın maliyyə sektoru yaxşı vəziyyətdədir.

"Fiskal siyasət yaxşı səviyyədə tənzimlənib və səylər gəlirlərin səfərbər edilməsinin gücləndirilməsinə və xərclərin səmərəliliyinin artırılmasına yönəldilməlidir. Dövlət borcu ağlabatan səviyyədədir. Gəlirlərin səfərbərliyinə vergi bazasını genişləndirən və vergi xərclərini optimallaşdıran vergi siyasəti və inzibatçılıq islahatları vasitəsilə nail olunmalıdır. Xərclərin səmərəliliyi dövlət investisiyalarının idarə edilməsi proseslərinin daha yaxşı həyata keçirilməsi və xərclərin nəzərdən keçirilməsi ilə artırıla bilər. Sosial yardım ictimai iş proqramlarını təkmilləşdirmək və məşğulluğu təşviq etmək səyləri ilə yanaşı, ən həssas ailələrə daha yaxşı ünvanlanmalıdır", - deyə hesabatda deyilir.

Sözügedən hesabatda eləcə də qeyd edilib ki, davamlılığı gücləndirmək və riskləri həll etmək üçün əlavə addımlar atılmalıdır. Dollarlaşmanın daha da azaldılması, eləcə də istehlak kreditlərinin və lari ilə maliyyələşdirmənin sürətli artımının monitorinqi üçün davamlı səylərə ehtiyac var. Maliyyə xidmətləri sektorunda rəqabət, o cümlədən açıq bankçılıq yolu ilə yaxşılaşdırılmalıdır.

Sənədə əsasən, "Gürcüstanın inkişaf potensialını gücləndirmək və inklüziv və iş yerləri ilə zəngin artımı dəstəkləmək üçün struktur islahatları lazımdır".

Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurasının fikrincə, Milli Bankın idarəçiliyinin və müstəqilliyinin gücləndirilməsi mühüm prioritet olaraq qalır.

## QƏZETİMİZİN XRONİKASI

**Beynəlxalq münasibət**

• Tehranda İran, Rusiya və Çin nümayəndələrinin İranın nüvə proqramı ilə bağlı görüşü baş tutub. Tərəflər böhranın həlli üçün addımları davam etdirmək barədə razılığa gəliblər.

• İstanbulda keçirilən IDEF 2025 beynəlxalq müdafiə sənayesi sərgisində Türkiyə müdafiə sənayesi ilk dəfə olaraq dünyanın ən yaxşı inkişafları əsasında yaradılmış türk hücum gəmisini təqdim edib.

• "Halk TV" Türkiyə Milli Müdafiə Nazirliyinpə istinadən xəbər verir ki, Suriya hakimiyyəti Türkiyədən Ərəb Respublikası ərazisində terrorçu qruplarla mübarizə aparmaq üçün hərbi yardım göstərməyi xahiş edib.

• Ankara dördüncü nəsil Eurofighter Typhoon qırıcılarının tədarükü ilə bağlı Almaniya ilə razılığa gəlib. "Şpiqel" nəşrinin məlumatına əsasən, Berlin 40 təyyarənin ixracını təsdiqləyib.

• Rusiya Azərbaycan, İran, Türkiyə və digər ölkələrlə "Mavi Kart" avtomobil sığortası sisteminə qoşulmaq üçün danışıqlar aparır. Layihə çərçivəsində əməkdaşlıq nəqliyyatın inkişafına müsbət təsir göstərməlidir.

• İran prezidenti Məsud Pezeşkian bildirib ki, respublika Yaxın Şərq regionu ölkələri ilə kollektiv təhlükəsizlik konsepsiyası üzərində işləməyə hazırdır. O qeyd edib ki, region bundan əvvəl İrana belə dəstək verməyib.

• ABŞ Prezidentinin Yaxın Şərq üzrə nümayəndəsi Stiven Vitkof atəşkəslə bağlı danışıqlar aparmaq üçün Qəzzaya gedir. Bu haqda ABŞ Dövlət Departamenti bildirib.

• ABŞ prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə potensial olaraq sentyabrda Çində baş tuta biləcək görüşün mümkünlüyünü dəyərləndirib. Trampın sözlərinə görə, belə bir görüşün keçirilməsi mümkündür.

• Rusiya mətbuatı xəbər verir ki, Rusiya 150-dən çox gəmi, 120 döyüş təyyarəsi və 15 min hərbçinin iştirak etdiyi irimiqyaslı hərbi və dəniz təlimlərinə başlayıb.

**Diplomatiya**

• Mariam Kvrivişvili Özbəkistanın nəqliyyat naziri İlham Mahkamov ilə həm ikitərəfli, həm də regional formatda əməkdaşlıq məsələlərini müzakirə edib.

• Gürcüstanın Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Tea Axvlediani ATƏT-in Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristof Şpet ilə görüş keçirib.

• Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Qivi Mikanadze iyulun 24-də Azərbaycan Respublikasına rəsmi səfərə gedib. Səfər iyulun 26-da başa çatacaq.

• Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili Qazaxıstana rəsmi səfəri çərçivəsində Qazaxıstanın baş naziri Oljas Bektenov, habelə nəqliyyat naziri Nurlan Sauranbayev və energetika naziri Erlan Akenjenov ilə görüşlər keçirib.

• Gürcüstanın Daxili İşlər nazirinin müavini Mariam Tabatadze Türkiyə Respublikasında işgüzar səfərdədir. Səfər çərçivəsində nazir müavini Türkiyə Milli Polisinin rəhbəri Mahmud Dəmirtaş ilə ikitərəfli görüş keçirib. Tərəflər iki ölkənin hüquq-mühafizə orqanları arasında tərəfdaşlığın əhəmiyyəti və prioritet sahələrini müzakirə ediblər.

**İqtisadiyyat**

• Şalva Papuaşvili "İmedi LIVE" verilişində Moldova və Gürcüstanın iqtisadi vəziyyətini müqayisə edib. Parlament sədri qeyd edib ki, 2022-ci ildə Moldova Rusiya ilə bağlı Brüsselin tövsiyələrini nəzərə alıb, Gürcüstan isə bunu nəzərə almadı, nəticədə 2022-ci ildə Moldovada 5 faiz iqtisadi geriləmə, Gürcüstanda isə 11 faizlik artım oldu.

• Asiyanın ən böyük aviaşirkətlərindən biri olan INDIGO Gürcüstana yeni marşrut əlavə edir. Avqustun 2-dən etibarən INDIGO şirkəti Mumbaydan (Hindistanın keçmiş adı - Bombey) Tbilisiyə həftədə üç dəfə birbaşa uçuş həyata keçirəcək. Gürcüstan Hava Limanları Assosiasiyasının Müşahidə Şurasının sədri Tamar İoselianinin sözlərinə görə, Mumbaya birbaşa reyslərin təyin edilməsi iki ölkə arasında turizm, işgüzar və mədəni əlaqələri əhəmiyyətli dərəcədə gücləndirəcək.

• Artıq 8 minə yaxın ailə "Güzəştli ipoteka kreditləri" dövlət proqramından yararlanıb və təsdiq edilmiş kreditlərin həcmi 932 milyon lari təşkil edib.

**Kriminal**

• Gürcüstan Prokurorluğu bir nəfəri külli miqdarda narkotik vasitələrin qanunsuz alınması, saxlanması və satılmasında ittiham edib. Bu barədə məlumatı Prokurorluq yayıb. Daxili İşlər Nazirliyi tərəfindən aparılan araşdırmalarla müəyyən edilib ki, təqsirləndirilən şəxs külli miqdarda narkotik vasitə olan "Metadon"u qanunsuz olaraq saxlayıb və satıb.

• Keçmiş müdafiə naziri Levan İzoria düşmənçilik fəaliyyətinə yardım və təxribat cəhdi məsələsi üzrə dindiriləcək.

**İdman**

• Gürcüstanın idman naziri Şalva Qoqoladze Yaponiya Olimpiya Komitəsinin və Beynəlxalq Qılıncoynatma Federasiyasının Direktorlar Şurasının üzvü Uki Ota ilə görüş keçirib.

• Şimali Makedoniyanın paytaxtı Skopyedə davam edən Avropa Gənclər Olimpiya Festivalında cüdoçu Saba Bolkvadze (-50 kq) bürünc medal qazanıb. O, üçüncü yer uğrunda mübarizədə britaniyalı rəqibini məğlub edib.

**Maraqlı**

• Britaniyada Aberistuit Universitetinin alimləri Stounhenc daşlarının ibtidai insanlar tərəfindən özbaşına əraziyə gətirildiyi fərziyyəsini təsdiqləyiblər. Universitet komandası 3-4 ton ağırlığındakı daşların Solsberi çəmənliklərində buzlaqların əriməsi nəticəsində tapıldığı nəzəriyyəsini rədd edib.

• İtaliyanın mərkəzində Roma Respublikasından əvvəl mövcud olan sivilizasiyaya aid nadir, toxunulmaz etrusk qəbri aşkar edilib. Qəbir daşdan oyulmuş və kiçik bir evə bənzəyir. Orada dörd nəfərin - iki qadın və iki kişinin qalıqları var.

• Alimlər bildirirlər ki, Yer kürəsinin fırlanmasının sürətlənməsi Koordinasiya edilmiş Universal Vaxtdan (UTC) bir saniyə çıxmağı zəruri edə bilər. Bu, ilk dəfə 1972-ci ildə olduğu kimi, vaxt əlavə etmək əvəzinə qısaldılacaq.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# MEYVƏ VƏ TƏRƏVƏZLƏRİN XÜSUSİYYƏTLƏRİ, İNSAN ORQANİZMİNƏ FAYDALARI VƏ ZƏRƏRLƏRİ

*(Əvvəli ötən sayımızda)*

**Çiyələk**



Əsrarəngiz ətrə, dada və görünüşə sahib çiyələk gülçiçəyikimilər fəsiləsinə aid olan bitkidir. Çiyələk toxumları xaricində yerləşən azsaylı meyvələrdən biridir. Çiyələyin müxtəlif növləri və altnövləri var. Çiyələk növləri biri digərindən ətir, dad, yetişmə dövrü və mətbəxdə istifadə baxımından fərqlənir. Ən yayğın çiyələk növləri latınca "Fragaria ananassa" adlanan bağ çiyələyi və onun altnövləri olan "Albion", "Elsanta", "Festival", "Kleri" və s-dir, eləcə də "Fragaria vesca" və ya dağ çiyələyi, "Fragaria viridis" və ya çöl çiyələyi və Rusiya və Skandinaviyada becərilən soyuq iqlimə davamlı çiyələk növləridir.

Çiyələk estetik görünüşünə və dadına görə mətbəx dizaynında geniş istifadə edilir: çiyələk ilə müxtəlif qənnadi məmulatları bəzəyirlər. Eləcə də bu meyvə çiy halda yeyilir, ondan mürəbbə və şirniyyatlar, kompot və marmelad hazırlanır.

**Çiyələk sadəcə əsrarəngiz dada, ətrə və görünüşə yox, tərkibindəki vitaminlər və minerallar səbəbilə insan orqanizmi üçün bir sıra faydalı xüsusiyyətlərə malikdir.** Çiyələk 90 faiz sudan ibarətdir. Meyvənin kalori miqdarı 32 kilokaloridir. Meyvənin tərkibində C və B9 vitaminləri, karbohidratlar, şəkər, liflər, çox miqdarda antioksidantlar, kalium və maqnezium kimi minerallar var.

Tərkibindəki C vitamini səbəbilə çiyələk immuniteti gücləndirir, orqanizmi infeksiyalardan qoruyur. Sözügedən vitamin orqanizmdə kollagen istehsalını artırdığı üçün, çiyələk dərinin parlaq və sağlam qalmasına səbəb olur, saça müsbət təsir göstərir. Yuxarıda qeyd etdiyimiz kimi, çiyələyin tərkibində antioksidantlar və kalium var ki, buna görə meyvə ürək sağlamlığına müsbət təsir göstərir, damarlara faydalı təsir göstərir, qan təzyiqini tənzimləyir. Çiyələk beyin funksiyalarına müsbət təsir göstərir, beyindəki hüceyrələrin yaşlanma prosesini yavaşladır, yaddaşı gücləndirir. Çiyələk həzm sistemini yaxşılaşdırır, tərkibindəki polifenollar və antosiyaninlər səbəbilə xərçəng riskini azaldır.

**Amma çiyələk bəzi hallarda insan orqanizmi üçün zərərli də ola bilər.** Bəzi insanlarda çiyələyə qarşı allergiya ola bilər ki, əlamətləri dəri səpgisi, qaşınma, dodaq və dilin şişməsi, eləcə də boğazda daralma hissidir. Qeyd edilən problemlər uşaqlarda və həssas immun sistemə malik şəxslərdə daha çox müşahidə olunur. Ticarət məqsədilə yetişdirilən çiyələklər çox vaxt kimyəvi dərmanlarla (pestisidlərlə) becərilir. Bu maddələr sağlamlıq üçün təhlükəli ola bilər. Sözügedən problemi həll etmək üçün meyvəni yumaq tövsiyə edilir. Çiyələyin tərkibində təbii turşular var ki, çox miqdarda istifadə edildikdə diş minasını zəiflədə bilər. Bu səbəblə meyvənin istehlakından sonra ağızı su ilə yaxalamaq tövsiyə edilir.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏRBÇİLİK** *is.* 1. Hər hansı dövlətin yeritdiyi silahlanma və müharibəyə hazırlaşma siyasəti.
// Bir ölkədə hərbçilərin siyasi ağalığı və ölkənin bütün təsərrüfatının qəsbkar müharibə məqsədlərinə tabe edilməsi; militarizm.

**HƏRBƏ** *is. [ər.] köhn.* 1. Qısa süngü, balaca nizə.
2. Hədə-qorxu, hərbə - zorba.
*Yağı düşmənin hərbəsi,*
*Qaçırtmaz meydandan məni.*
"Koroğlu".

■ **Hərbə gəlmək** – bax **hərbələmək.**
[Camal bəy:] *Mən sizə qaraqoyunlu deyiləm, mənə hərbə gələsiniz.*
N. Vəzirov.

**HƏRBƏLƏMƏK** Qorxutmaq, hədə-qorxu gəlmək, hərbə-zorba gəlmək.
*İstədim, yaxın gedəm,*
*Yoldaşları hərbələdi.*
Aşıq Ələsgər.

**HƏRBƏ - ZORBA** *is.* Qorxutmaq, dəhşətə salmaq üçün edilən hərəkət və ya deyilən söz; hədə-qorxu, hədə.

**HƏRBİ** *sif. [ər.]* 1. Hərbə, müharibəyə aid olan, müharibə ilə əlaqədar olan. *Hərbi vəziyyət.*
*Öz əlinlə öz yurduna ölüm dartmaq!*
*Bu "yeni" bir hərbi məntiq!*
M. Araz.
// Müharibə ehtiyacları üçün olan. *Hərbi zavod. Hərbi sənaye.*
*Gurlayır dalbadal hərbi gəmilər,*
*Soruşur parolu Hüseyndən şəhər.*
M. Rahim.
2. Orduya aid olan, orduda xidmətlə əlaqədar olan; əsgəri.
*Hərbi həkim. Hərbi məktəb. Hərbi xidmət. Hərbi mükəlləfiyyət.*
3. Orduda xidmət edən adamla əlaqədar olan; əsgəri. *Hərbi and.*
// Hərbi xidmətçiyə aid; əsgəri. *Hərbi forma (geyim).*
*Bir dəfə istirahət günü hərbi libası dəyişib sivil libas geyərkən* [Zərqələm] *məni tanımadı.*
Ə. Sadıq.
4. Orduda xidmət edən; hərbçi, hərbiyyəli. *Hərbi adam.*

**HƏRBİYYƏLİ** *is.* Hərbi xidmətçi, əsgəri xidmətdə olan adam.
*Üstüörtülü bir dam tapıb içəri girəndə hərbiyyəlilərlə dolu olduğunu gördü.*
Mir Cəlal.

**HƏRCAYİ** *sif. [fars.]* 1. Avara, sərsəri, veyil, heç bir işlə məşğul olmayan. *Hərcayi adam.*
*Ələsgərəm, doğru yoldan azmaram,*
*Hərcayi gözələ tərif yazmaram.*
Aşıq Ələsgər.
2. Mənasız, boş. Hərcayi iş.
[Hacı:] *Hərcayi söz danışırsan!*
M. İbrahimov.

**HƏRC - MƏRCLİK** *is.* Əmin-amanlıq, qayda-qanun olmadığı vəziyyət; qarışıqlıq, nizamsızlıq, qarmaqarışıqlıq; anarxiya.
*Hərc-mərclik geniş Rusiyanın bir başından tutmuş o biri başına qədər dalğalanırdı.*
Çəmənzəminli.

**HƏRÇƏND** *[fars.]* Bir cümləni ona zidd olan və ya onu aydınlaşdıran başqa cümlə ilə qarşılaşdıran bağlayıcı (həmin cümlənin ikinci hissəsində amma, ancaq, lakin, fəqət bağlayıcılarından biri işlənir). *Hərçənd qar yağır, lakin hava soyuq deyil.*
[Uçitel] *astanada ayaqqabısını soyunaraq onun mütaliəsinin qurtarmasını gözlədi. Hərçənd, bilirdi ki, molla Qurani-Kərimi oxumaqdan daha çox vərəqlərə baxır və özünü məşğul kimi göstərir.*
İ. Şıxlı.

**HƏRÇİ** *zərf [fars.]* Hər nə qədər, nə qədər.
*Hərçi səy etdisə, bir şey çıxmadı. Hərçi çalışdısa, şeiri əzbərləyə bilmədi.*
*Mirzə Səfər hərçi çalışdısa, ikinci misra gəlmədi. Neçə dəfə təpiyini yerə çırpdı, şərabın hamısını içdi, misra gəlmədi ki, gəlmədi.*
Ə. Haqverdiyev.

◊ **Hərçi bada bad** *[fars.]* – nəticəsi, aqibəti, nə ilə qurtaracağı bəlli olmayan bir işə iqdam etdikdə, girişdikdə deyilən ifadə.
*Molla "hərçi bada bad" deyib, girir dükana, bir tərəfdən döşənir halvanın üstünə.*
"M. N. lətif."

**HƏRDƏM** *zərf [fars.]* 1. Hər nəfəsdə, hər an, hər dəqiqə, həmişə, daim.
*Söhbətində olan istər sazını,*
*Mən çəkərəm hərdəm sənin nazını.*
Sarı Aşıq.
2. Bəzən, hərdən, arabir, hərdənbir, gah-gah. *Hərdəm bizə də gəl.*
[Asya:] *Bu yazıq yarına hərdəm,*
*Bir nəzər sal, gözəlim.*
Ü. Hacıbəyov.

**HƏRDƏMXƏYAL** *sif. [fars.* hərdəm və *ər.* xəyal] Sabit fikri olmayan, tez-tez fikrini dəyişən. *Hərdəmxəyal adam.*
*Yox, Mehriban yüngültəbiətli, hərdəmxəyal qızlara bənzəmirdi.*
H. Seyidbəyli.

**HƏRDƏN, HƏRDƏNBİR** *zərf* Həmişə deyil, bəzən, arabir. *Hərdənbir yağış yağır. Hərdənbir hava soyuyur.*
*Bibin hərdən çatılmış gördümü*
*qaşlarını,*
*Sənə şirin dil tökūb oxşardı*
*saçlarını.*
S. Rüstəm.

**HƏRƏ** *əvəz.* Toplu halında olan adamlardan hər biri; hər kəs.
*Hərə bir söz deyir. Hərə bir tərəfə getdi. Hərənin öz fikri var.*
*Qayadibi kəndinin əhalisi durub hərə öz işinə getdi.*
S. S. Axundov.

**HƏRƏKAT** *is. [ər.* "hərəkət" söz. cəmi]
1. Müəyyən məqsəd güdən ictimai fəaliyyət. *Fəhlə hərəkatı. Sülh tərəfdarları hərəkatı. Milli azadlıq hərəkatı.*
[Firidunun] *Pişəvəri ilə olan ikinci görüşü yadına düşdü. Onlar Azərbaycanda demokratik hərəkat haqqında uzun - uzadı danışmışdılar.*
M. İbrahimov.
2. Hərəkat qaydaları. *Küçə hərəkatı. Yol hərəkatı.*

**HƏRƏKƏ** *is. [ər.] dilç.* Ərəb əlifbasında saitləri necə oxumaq lazım gəldiyini göstərmək üçün hərflərin üstünə və ya altına qoyulan diakritik işarə.

**HƏRƏKƏLƏMƏK** *f. dilç.* Ərəb əlifbası ilə yazılmış sözdə saitləri necə oxumaq lazım gəldiyini göstərmək üçün hərflərin üstünə və ya altına hərəkə qoymaq.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### ბედნიერება რას ნიშნავს? (Bednieréba ras nişnavs?)
### Xoşbəxtlik nə deməkdir?

**ბედნიერება ის გრძნობაა, რომელსაც ადამიანი ყველაზე მეტად ესწრაფვის, თუმცა ზუსტად მისი განსაზღვრა ხშირად რთულია.** (Bedniereba is qrdznobaa, romelsats adamiani ğvelaze metad estsrapvis, tumtsa zustad misi qansazğvra xşirad rtulia.) **– Xoşbəxtlik elə bir hissdir ki, insan ən çox ona can atır, lakin onu dəqiq tərifini vermək çox vaxt çətindir.**

**ზოგისთვის ბედნიერება ქონება და წარმატებაა, სხვებისთვის კი ოჯახი, სიყვარული და ჯანმრთელობა.** (Zoqistvis bedniereba koneba da tsarmatebaa, sxvebistvis ki ocaxi, siğvaruli da canmrteloba.) **– Bəziləri üçün xoşbəxtlik var-dövlət və uğurdur, digərləri üçün isə ailə, sevgi və sağlamlıqdır.**

**სინამდვილეში, ბედნიერება მატერიალური კი არა, უფრო სულიერი მდგომარეობაა.** (Sinamdvileşi, bedniereba materialuri ki ara, upro sulieri mdqomareobaa.) **– Əslində, xoşbəxtlik maddi yox, daha çox mənəvi bir haldır.**

**ხანდახან მეგობრის ღიმილიც, კარგი ამინდიც ან უბრალოდ სიწყნარე შეიძლება გახდეს ბედნიერების წყარო.** (Xandaxan meqobris ğimilits, karqi amindits an ubralod sitsğnare şeidzleba qaxdes bednierebis tsğaro.) **– Bəzən bir dostun gülümsəməsi, gözəl hava və ya sadəcə sakitlik belə xoşbəxtlik mənbəyi ola bilər.**

**ბედნიერი ადამიანები ცხოვრების სირთულეებსაც უფრო მშვიდად და იმედით უყურებენ.** (Bednieri adamianebi tsxovrebis sirtuleebsats upro mşvidad da imedit uğureben.) **– Xoşbəxt insanlar həyatın çətinliklərinə də daha sakit və ümidlə yanaşırlar.**

**ნამდვილი ბედნიერება ის არის, როცა სხვისი სიხარული შენც გახარებს.** (Namdvili bedniereba is aris, rotsa sxvisi sixaruli şents qaxarebs.) **– Əsl xoşbəxtlik odur ki, başqasının sevinci səni də sevindirir.**

**ამიტომ ბედნიერება საძებნი კი არა, შესაქმნელი დამოკიდებულებაა საკუთარ თავთან და სამყაროსთან.** (Amitom bedniereba sadzebni ki ara, şesakmneli damokidebulebaa sakutar tavtan da samğarostan.) **– Ona görə də xoşbəxtlik axtarılası yox, qurulması gərəkən, insanın özü və dünya ilə qurulan asılılıqdır.**

**გარკვეულწილად, ბედნიერება დამოკიდებულია იმაზე, როგორ ვუყურებთ ცხოვრებას.** (Qarkvevultsilad, bedniereba damokidebulia imaze, roqor vuğurebt tsxovrebas.) **– Müəyyən mənada, xoşbəxtlik həyata necə baxdığımızdan asılıdır.**

**ის შეიძლება პატარა დეტალებში ვიპოვოთ მზის სხივში, მეგობრის სიტყვაში ან გულწრფელ ღიმილში.** (İs şeidzleba patara detalebşi vipovot mzis sxivşi, adamianis sitğvaşi an qultsrpel ğimilşi.) **– Onu kiçik detallarda tapa bilərik - günəşin şüasında, insanın sözündə və ya səmimi bir təbəssümdə.**

Tədbir

# MİLLİ MƏTBUATIMIZIN 150 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏDBİR KEÇİRİLİB



İyulun 21-də Marneuli şəhərindəki "Azərbaycan Evi"ndə 22 iyul – Milli Mətbuatımızın 150 illik yubileyinə həsr olunmuş tədbir keçirildi. Tədbir Gürcüstan Azərbaycanlıları Konqresinin, AZƏRTAC-ın, eləcə də "Gürcüstan" qəzetinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutdu.

Yubiley tədbirində ictimaiyyətin nümayəndələri, icra orqanlarının təmsilçiləri, ziyalılar, gənclər, mətbuat orqanlarının üzvləri iştirak edirdi.

Tədbiri giriş sözü ilə GAK-ın sədri Hüseyn Yusubov açaraq iştirakçıları salamladı, sonra Milli Mətbuat tariximizə və Gürcüstanda anadilli mətbuatımızın inkişaf mərhələlərinə ekskurs etdi. O dedi:

"Gürcüstanda Azərbaycandilli mətbuatın böyük tarixi var. 150 illik Azərbaycan mətbuatının bir qanadında da Gürcüstandakı Azərbaycan dilli mətbuat dayanır. Borçalı ziyalılarının ərsəyə gətirdiyi mətbuat orqanları soydaşlarımızın həyatında mühüm rol oynayıb.

1828-ci ildə Tiflis şəhərində "Tiflisskiye vedomosti" qəzeti rus dilində nəşrə başladı. Həmin qəzet 1829-cu ildə gürcü, 1832-ci ilin əvvəlində isə Azərbaycan dilində nəşr olunub. "Tiflis əxbarı" adı ilə Azərbaycan dilində buraxılan bu qəzet – vərəqənin ömrü uzun olmadı, onun son nömrəsi 1833-cü ilin əvvəllərində çap olundu.

1845-ci ildə isə Tiflisdə "Zakavkazskiy vestnik" qəzetinin əlavəsi kimi Azərbaycan dilində "Qafqazın bu tərəfinin xəbərləri" adlı qəzet-vərəqə buraxılıb. Bu qəzet 1846-cı ildə bağlanıb.

Lakin etiraf etmək lazımdır ki, bu qəzetlərlə Azərbaycan mətbuatı yaranmadı, ancaq olsa-olsa, tədqiqatçıların da qeyd etdiyi kimi, onlar yalnız və yalnız yaranmaqda olan Azərbaycan milli mətbuatının rüşeymi oldular. Bəllidir ki, Azərbaycan mətbuatının yaranması tarixi 1875-ci ilin iyul ayının 22-də nəşrə başlayan "Əkinçi" qəzeti ilə bağlıdır, həm də bu gün bu böyük mətbuat - media ənənəsini davam etdirmək bizim gənc jurnalistlərin üzərinə düşür. Saytlarımızı yüksək səviyyəyə qaldırmaq üçün, əlbəttə ki, çox çalışmaları, işləmələri lazımdır! İnanıram ki, onlar bunu bacaracaqlar. Jurnalistlərimiz üzərlərinə düşən işlərin məhsuliyyətini dərk edərək çalışmalı və işləməlidirlər ki, mediamızı operativ edərək yüksək səviyyəyə qaldırsınlar!

Sonra AZƏRTAC-ın Gürcüstan üzrə xüsusi müxbiri, tanınmış jurnalist Xətai Əzizov çıxışında belə dedi:

"Milli mətbuat yarandığı gündən cəmiyyətin inkişafına xidmət edib, insanların maariflənməsində, ölkədə və dünyada baş verən hadisələrdən xəbərdar olmasında mühüm rol oynayıb. 1875-ci il iyulun 22-də işıq üzü görən "Əkinçi" qəzeti də məhz bu prosesin başlanğıcını qoyub. Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan mətbuatı inkişaf edib və regionda aparıcı rol oynayır.

Bu gün 150 yaşını qeyd edən Azərbaycan mətbuatı güclü inkişaf yolu keçib. İndi dünyada süni intellekt vasitəsilə saxta xəbərlərin hazırlanmasına tez-tez rast gəlinir. Ona görə də peşəkar səviyyədə hazırlanmış, dəqiq və obyektiv məlumatların izlənilməsi vacibdir".

Tədbirin təşkilatçılarından biri olan "Gürcüstan" qəzetinin baş redaktoru Xaləddin Yolçuyev çıxışını tarixi notlara köklədi:



"Burada milli qürurlu, maarifpərvər insanları görməkdən və hər birinizə Allahın mübarək kəlamı kimi salamımı çatdırmaqdan məmnunluq hissi keçirirəm.

Bu gün "Əkinçi" qəzetinin ilk sayının işıq üzü görməsindən 150 il keçməsinə baxmayaraq məhz maarifpərvər insanlar "Əkinçi" qəzetinin işığına toplanmışıq. "Əkinçi" qəzetinin tarixi haqqında məndən qabaq çıxış edənlər ətraflı məlumat verdilər. Qeyd etmək istəyirəm ki, 1877-ci ildə "Əkinçi" qəzetinin nəşri dayandırıldıqdan sonra yenə də Tiflis şəhərində Hacı Səid Ünsizadənin rəhbərliyi ilə Azərbaycan dilində "Ziya" (1879), 1880 – 1884-cü illərdə "Ziyayi-Qafqaziyyə" qəzetləri, 1883 – 1891-ci illərdə Hacı Səid Ünsizadənin qardaşı Calal Ünsizadə tərəfindən siyasətdən bəhs edən "Kəşkül" adlı jurnal nəşr olunub.Onun cəmi 11 sayı işıq üzü görüb. Sonradan qəzet kimi nəşr olunub. XX əsrin əvvəllərində isə Tiflisdə Məmmədağa Şahtaxtinskinin təşəbbüşü və maliyə dəstəyi ilə "Şərqi-Rus" qəzeti (1903-cü ildə) nəşr olunub və 1905-ci ildə nəşri dayandırılıb. Maraqlı haldır ki, qəzetin mətbəəsini Cəlil Məmmədquluzadə satın alıb və satirik "Molla Nəsrəddin" adlı mətbuat orqanını yaradıb.

"Molla Nəsrəddin"i zəmanə özü yaratmışdı. Jurnalın birinci nömrəsi **"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım"** çağırışı ilə 1906-cı ilin 7 aprelində çıxdı və böyük maraqla qarşılandı.

Azərbaycan Milli Mətbuat gününün 150 illik yubiley tədbirində hazırda rəhbərlik etdiyim "Gürcüstan" qəzetinin tarixi barədə qısa məlumat versək yerinə düşər: Sovet hakimiyyəti qurulduqdan sonra Tiflisdə Azərbaycandilli qəzetlər əvvəlcə "Kommunist" (1921), sonra isə "Yeni fikir" (1922) adı ilə nəşr olunub.

"Yeni fikir" qəzeti 1927-ci il may ayının 31-də nəşrini dayandırmış, bundan bir ay sonra 1927-ci il iyun ayının 30-da Tiflisdə qəzet "Yeni kənd", sonra 1939-cu ildə "Sovet Gürcüstanı", 1991-ci ilin noyabrından isə "Gürcüstan" adı ilə nəşr olunmuşdur.

"Gürcüstan" qəzeti bir əsrdən çox, dəqiq desək, zaman-zaman yaranmış müəyyən çətinliklərə baxmayaraq, 104 ildir ki mütəmadi olaraq nəşr olunaraq öz üzərinə düşən vəzifəni yerinə yetirməyə çalışır. "Gürcüstan" qəzeti Azərbaycan mediasının "sağ qoludur" və Gürcüstan azərbaycanlılarının varlığını göstərən uca məqamdır. "Sol qolu" isə ermənistanın azərbaycandilli mediası idi və bədnam qonşu çox təəssüf ki onu kəsməyə nail oldu. Harada nəşr olunmasından asılı olmayaraq, millətinə və xalqına xidmət edən azərbaycandilli qəzetləri qorumaq məsuliyyəti kimlərin üzərinə düşürsə, özləri bunu dərk etməlidirlər".

Tədbirin davamı olaraq media nümayəndələrinə GAK-ın fəxri fərmanları və diplomları təqdim edildi. Mükafatçılar sırasında ölkəmizdə akkreditasiya olunmuş Azərbaycan Respublikasının media nümayəndələri və yerli jurnalistlərdə var idi. Mükafatları GAK – ın sədri Hüseyn Yusubov, şairə Səadət Buta, yazıçı-folklorşünas Əli Abbas, iki çağırış parlamentimizin deputatı olmuş Ramiz Bəkirov, məktəb direktoru Hümbət Hüseynov, QafqazTürkMedianın redaktoru İbrahimxəlil Məhəmmədəlioğlu təqdim etdilər.

Tədbir çay süfrəsi ilə başa çatdı.

**P.S.** Həmkarlarımızı bu əlamətdar yubiley münasibətilə ürəkdən təbrik edir, şərəfli və məsuliyyətli işlərində uğurlar arzulayırıq!



**"Gürcüstan"**

# SÜLH TƏHSİLİ VƏ ONUN MÜASİR TƏHSİLDƏ ROLU



Müasir dünyada zorakılığın, münaqişələrin və sosial bərabərsizliyin artması təhsil sahəsində yeni yanaşmaların inkişaf etdirilməsini zəruri edir. Bu kontekstdə sülh təhsili münaqişələrin qarşısını almağa, zorakılığın azalmasına və şagirdlərin empati, əməkdaşlıq və sosial məsuliyyət kimi dəyərləri mənimsəməsinə xidmət edən mühüm bir yanaşmadır.

Sülh təhsili anlayışı ilk dəfə 20-ci əsrin ortalarından etibarən beynəlxalq təşkilatların və alimlərin diqqətini çəkmişdir. UNESCO-nun və UNICEF-in təşəbbüsləri ilə bu sahədə bir çox proqramlar həyata keçirilmiş, sülh, insan haqları, multikulturalizm və sosial ədalət kimi anlayışlar tədris proqramlarına daxil edilmişdir. Sülh təhsilinin əsas məqsədi cəmiyyətin gələcək üzvləri olan uşaqlara və gənclərə zorakılıqsız davranış modellərini öyrətmək və münaqişələrin dinc yolla həllini təşviq etməkdir.

Məncə, bu gün dünyada ən çox ehtiyac duyduğumuz dəyərlərdən biri sülhdür. Bunu sadəcə ölkələrarası münasibətlərdə deyil, gündəlik həyatımızda, məktəblərdə, ailələrdə və iş yerlərində də hiss edirik. Məhz buna görə də təhsil sistemində sülh təhsili anlayışı son dərəcə aktual və vacibdir.

Sülh təhsili dedikdə, biz uşaqlara və gənclərə zorakılıqsız ünsiyyət, empati, qarşılıqlı hörmət və əməkdaşlıq kimi dəyərləri aşılayan tədris yanaşmasını nəzərdə tuturuq. Bu, şagirdlərə sadəcə dərs öyrətməkdən daha çox şey deməkdir – onlara yaxşı insan olmağı, dinləməyi, anlamağı və fərqli baxışlara hörmət etməyi öyrətməkdir.

Mənim fikrimcə, sülh təhsili məktəblərdə yalnız əlavə dərslər və ya layihələr çərçivəsində deyil, tədrisin bütün mərhələlərinə inteqrasiya olunmalıdır. Müəllimlər sinifdə yaranan münaqişələri həll etmək üçün sadə cəzalandırma üsullarından deyil, dinc dialoq və qarşılıqlı anlayış yollarından istifadə etməlidirlər. Bu zaman uşaqlar öz davranışlarının məsuliyyətini dərk etməyi, hisslərini düzgün ifadə etməyi və başqalarının hisslərini nəzərə almağı öyrənirlər.

Əlbəttə, bu yanaşmanın tətbiqində çətinliklər də olur. Bəzən müəllimlər bu sahədə təlim almamış olurlar, ya da məktəbin ümumi mühiti bunu dəstəkləmir. Lakin bununla belə, dünyada zorakılığın artdığı, cəmiyyətlərdə qütbləşmənin dərinləşdiyi bir zamanda sülh təhsilinin vacibliyi danılmazdır. Əgər biz gələcəkdə daha tolerant, anlayışlı və ədalətli bir cəmiyyət qurmaq istəyiriksə, bu proses məhz məktəbdən – yəni təhsildən başlamalıdır.

Sülh təhsili həm də uşaqların sosial-emosional inkişafı üçün önəmlidir. Öz duyğularını tanıyan, onları düzgün ifadə edən və başqalarının vəziyyətini anlayan gənclər həm akademik, həm də şəxsi həyatlarında daha uğurlu olurlar. Onlar daha az aqressiv, daha açıqfikirli və daha məsuliyyətli olurlar. Bu isə bütövlükdə məktəb mühitinə də müsbət təsir göstərir.

Mən hesab edirəm ki, sülh təhsili təkcə bir təhsil modeli deyil – bu, bir yanaşmadır, bir baxışdır, bir həyat tərzidir. Bu yanaşma ilə böyüyən gənclər gələcəkdə cəmiyyətə daha çox fayda verə, daha sağlam münasibətlər qura və münaqişələri sülh yolu ilə həll edə bilərlər. Və bu dəyişikliklərin təməli bu gün bizim sinif otaqlarımızda atılır.

**Arzu Əliyeva,**
**İngilis dili müəllimi.**

# "ƏKİNÇİ" QƏZETİNİN NƏŞR OLUNMASINDAN 150 İL KEÇİR

Görkəmli maarifçi, alim, jurnalist Həsən bəy Məlikov Zərdabinin redaktorluğu ilə 1875 – ci ilin 22 iyulundan 1877 – ci ilin 29 sentyabrınadək "Əkinçi" qəzeti ayda iki dəfə 300-400 tirajla nəşr olunub. Qəzetin 56 nömrəsi işıq üzü görüb Qəzet "Daxiliyyə", "Əkin və ziraət xəbərləri", "Mətbuat", " Elmi xəbərlər" və "Təzə xəbərlər" başlıqları altında beş əsas şöbəyə bölünürdü. Qəzetin ilk nömrəsində bu sətirləri oxuyuruq "...Olmaz ki, dünyada həmişə bir qayda ilə rəftar olsun. Bizim zəmanə dəyişilməyi tələb edir".

Həsən bəy Məlikov Zərdabi nəşr etdiyi "Əkinçi" qəzeti ilə realist ədəbiyyatımızın inkişafında böyük xidmət etmişdir. Nəcəf bəy Vəziriv, Əsgər ağa Gorani, Əhsənül-Qəvaid kimi yazıçıların və Seyid Əzim Şirvaninin realist bir şair kimi yetişməsində onun böyük rolu olmuşdur.



Burada onu da qeyd etmək istəyirəm ki, Tiflisdə 1832 – ci ildə "Tiflis əxbarı" (redaktoru P. S. Pankovski) adı ilə 1845 – ci ildə isə "Qafqazın bu tərəfinin xəbərləri" adı ilə azərbaycan dilində qəzetlər nəşr olunmaqla Azərbaycanda "Əkinçi" qəzetinin yaranması zəruriyyətinə təməl olub.

**Füzuli Rüstəmov,**
**"Gürcüstan" qəzetinin təəssübkeşi və ictimai fəal, Tbilisi sakini.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**25 iyul**

•1139—"Fateh Afonso" və "Qurucu Afonso" kimi tarixə düşən və hakimiyyətini gücləndirmək uğrunda İspaniya krallıqlari Leon və Kastiliyaya qarşı mübarizədə Portuqaliya qrafı I Afonso Ourike döyüşündə Əli ibn Yusifin rəhbərlik etdiyi Mürabitlər qoşununu məğlub etdikdən sonra əsgərləri tərəfindən kral elan edilib. Nəticədə Portuqaliya krallığa çevrilib.

•1911 — **Mirzə Ələkbər Sabir, Azərbaycan şairi, vəfat edib.**

•1947—Çexoslovakiyanın paytaxtı Praqada solçu "Ümumdünya Demokratik Gənclər Federasiyası"nın təşkilatçılığı ilə Ümumdünya Gənclər və Tələbələr festivalı keçirilib. Festival 1939-cu ilin oktyabr-noyabr aylarında minlərlə şagird və tələbənin ölkənin faşist Almaniyası tərəfindən işğalına qarşı nümayişlərdə iştirak etdiyi, nəticədə ölkədəki bütün ali təhsil müəssisələrinin bağlandığı, 1850 tələbənin həbs edildiyi, 1200 nəfərin isə sonradan həbs düşərgələrinə göndərilənlərin xatirəsinə təşkil edilib.

**26 iyul**

• 1847 — 1821-ci ildən Amerikanın quldarlığa qarşı mübarizə aparan cəmiyyətlərinin təşəbbüsü ilə qərbi Afrika sahilinə köçürülən azad edilmiş qaradərililər öz dövlətlərinin – Liberiyanın müstəqilliyin elan ediblər.

•1956 — Misir prezidenti Camal Əbdul Naser Süveyş kanalını milliləşdirib. Misir prezidentinin bu addımından narazı olan Böyük Britaniya və Fransa, eləcə də Sinay yarımadasını işğal etmək istəyən İsrail 29 oktyabr 1956-cı ildə Misirə hücum ediblər. Müttəfiqlər hərbi uğur əldə etsələr də, dünya icmasının və xüsusilə SSRİ-nin Misirin işğalına etiraz etməsi nəticəsində geri addım atmalı olublar və Süveyş Misirin nəzarətinə qayıdıb.

•**Liberiyanın Müstəqillik Günüdür.**

**27 iyul**

•1656—Hollandiyalı yəhudi filosof Benedikt (Barux) Spinoza yəhudilik əqidəsi ilə zidd olan rasional fikirləri səbəbilə Hollandiyanın yəhudi icması tərəfindən Amsterdamdakı evindən qovulub. Spinozanın fəlsəfəsi rasionalizmin panteist mistisizmlə birləşməsi idi.

•1980—1979-cu ildə baş vermis İran İslam İnqilabı nəticəsində taxtdan salınan İranın sonuncu şahı Məhəmməd Rza Pəhləvi qan xəstəliyindən müalicə edildiyi Misirin paytaxtı Qahirədə vəfat edib.

**28 iyul**

• 1586—İngilis alim və səyyah Ser Tomas Hariot (1560 – 1621-ci illər) Şimali Amerikadan Böyük Britaniya və İrlandiyaya kartof gətirib.

•2010 — **Mzia Kvirikaşvili, gürcü aktrisa, vəfat edib.**

•Doktor Barux Blumberqin ad günü şərəfinə Ümumdünya Hepatit Günü qeyd edilir. Doktor Blumberq 1967-ci ildə hepatit B virusunu kəşf edib və iki ildən sonra ona qarşı peyvənd hazırlayıb.

**29 iyul**

• 1941 — Nasist Almaniyası ilə birlikdə SSRİ-yə hücum edən Rumıniya 1940-cı ilin iyun ayında SSRİ tərəfindən ilhaq edilmiş Bessarabiya və Bukovinanı tərkibinə geri qaytarıb.

• 2010-cu ildə Sankt-Peterburqda keçən Yer üzündə pələnglərin mühafizəsi üzrə beynəlxalq forumda bu gün Beynəlxalq Pələng Günü olaraq təyin edilib.

**30 iyul**

•1729— ABŞ-nin Merilend ştatının ən böyük şəhəri olan Baltimorun əsası qoyulub.

•1938—Nasist Almaniyası nasist partiyasının maliyyələşdirilməsində aktiv rol oynayan avtomobil maqnatı , "Ford" şirkətinin qurucusu Henri Fordu "Alman Qartalının Şərəf Ordeni" ilə mükafatlandırıb.

**31 iyul**

• 1974-cü ildə İranda donor qanı ilə bağlı vəziyyəti tənzimləmək üçün Qanköçürmə Təşkilatı yaradılıb. Sözügedən təşkilatın yaranma günü (31 iyul) ölkədə "Milli Donor Günü" kimi qeyd edilir.

• Polşada rəsmi peşə bayramı olan Xəzinədarlıq Günü qeyd edilir. Bayram 31 iyul 1919-cu ildə müstəqil Polşanın vergi orqanlarının və xəzinədarlıq təşkilatlarının yaranması ilə bağlıdır.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## MZİA KVİRİKAŞVİLİ



***XX – XXI əsrlərin məşhur gürcü yumoristi aktrisa Mzia Kvirikaşvili 27 yanvar 1949-cu ildə anadan olub.*** O uşaqlıq yaşından insanları əyləndirməyə başlayıb. Vokal ifaçılıq üzrə təhsil almasına baxmayaraq, Mzianı xanəndəlikdən çox yumor sahəsi cəlb edib.

"Gülüş Kraliçası" ləqəbi ilə tanınan Mzia Kvirikaşvili xüsusilə məşhur "Yumorina" televiziya truppasındakı çıxışları ilə gürcü komediyasının sevimli simasına çevrilib. Gürcü tənqidçilər aktrisanı "Donlu Çaplin" adlandırıblar.

Mzia Kvirikaşvili yaradıcılığında xüsusilə gündəlik həyatı – qonşularını, Gürcüstan şəhərlərinin küçələrindəki gündəlik həyatı və bazarlardakı ticarət fəaliyyətini yumoristik formada təqdim edərək, dərin emosiyalarını gizləyib tamaşaçıları güldürməyi bacarıb.

Mzia Kvirikaşvili sadəcə Gürcüstanda yox, xaricdə də tanınıb. Beynəlxalq rusdilli yumor müsabiqəsindəki uğurlu iştirakı ilə xarici tamaşaçıların marağını cəlb edib.

Mzia Kvirikaşvilinin dərin fikirlərini əks etdirən sitatları mövcuddur. Müsahibələrindən birində o deyib: "Yumoristlər çox vaxt ən kədərli insanlardır - gizli ağrıları olan harlekinlər. Ancaq pərdə arxasında göz yaşlarını silərək, parlaq bir təbəssümlə səhnəyə çıxır və tamaşaçıları güldürürsən." O, həmçinin deyib: "İnsanları güldürə bilmək onları ağlatmaqdan daha çətindir." Eləcə də o bu sözləri deyib: "Bütün həyatım yumordan ibarətdir. Mən yanvarın 27-də, Ninooba günündə anadan olmuşam və adım Mziadır (Mze - günəş ). Yumor mənim genlərimdə var". "Ən çox qorxduğum gün səhnəni tərk edəcəyim gündür. Və daha çox qorxuram ki, tamaşaçılar bir daha məni alqışlamayacaqlar". "İnsanların sevgisini qazanırsansa, onları heç vaxt utandırmamalısan. Məsuliyyət hissi mənim üçün başqa hisslərdən daha böyükdür."

Mzia Kvirikaşvili 28 iyul 2010-cu ildə ciyər xərçəngi səbəbilə Tbilisidə vəfat edib. Mzia Kvirikaşvili Gürcüstanın mədəniyyət tarixində sevimli və nüfuzlu şəxsiyyət olaraq qalır. Onun gülüşü nəsillərə çatdı və onun hisslərinin dərinliyi bu gün də əks-səda verməkdə davam edir – o, artıq həyatda olmasa da, buraxdığı mədəni miras şübhəsizdir.

## MİRZƏ ƏLƏKBƏR SABİR



***Mirzə Ələkbər Sabir 30 may 1862-ci ildə Şamaxıda anadan olub.*** İbtidai təhsilini mədrəsədə alıb. 1874-cü ildə məşhur azərbaycanlı maarifçi şair - satirik Seyid Əzim Şirvaninin qurduğu yeni tipli məktəbə keçib. Seyid Əzim Şirvani gələcək şairin qeyri-adi qabiliyyətlərini görərək, onun ilk poetik təcrübələrinə rəhbərlik edib. Sabir ilk şeirini səkkiz yaşında yazıb.

Sabir 23 yaşında müqəddəs yerləri ziyarət etmək bəhanəsi ilə Zaqafqaziya, İran, İraq və Orta Asiyaya səyahətə çıxıb.

Mirzə Ələkbər Sabirin şeirləri ilk dəfə 1903-cü ildə "Şərqi Rus" qəzetində nəşr edilib. 1903 – 1905-ci illərdə Mirzə Ələkbər Sabir "Dəbistan", "Zənbur", "İrşad", "Həqiqət" və "Həyat" qəzet və jurnalları ilə əməkdaşlıq edib.

11 aprel 1908-ci ildə Bakı qubernatorluğu tərəfindən təşkil edilən müəllimlik imtahanında iştirak edərək, uğurlu nəticə əldə edib. O, Tbilisidəki Mavərayi-Qafqaz Müsəlmanları Ruhani İdarəsi tərəfindən verilən rəsmi şəhadətnamə ilə müəllimlik hüququ qazanıb. Lakin Qori Seminariyasında işə düzələ bilməyib. Nəticədə, Sabir bir müddət Şamaxıdakı məktəblərdən birində köməkçi müəllim kimi dərs deməyə başlayıb.

1908-ci ilin sentyabr ayında Sabir hökumətin icazəsi ilə Şamaxıda "Ümid məktəbi" adlı yeni bir məktəb açıb. Məktəbdə Azərbaycan türkcəsi, fars dili, riyaziyyat, coğrafiya, təbiət bilikləri, habelə Quran və şəriət dərsləri tədris olunub. Sözügedən məktəb 1909-cu ildə fəaliyyətini dayandırıb.

"Ümid məktəbi" fəaliyyətini dayandırdıqdan sonra, Mirzə Ələkbər Sabir maarifçiliyə davam etmək məqsədilə Bakıya köçüb. Burada o "Səda" qəzeti və "Molla Nəsrəddin" jurnalı ilə sıx əməkdaşlıq edib.

Mirzə Ələkbər Sabir sağlığında əsərləri kitab şəklində nəşr olunmayıb. 1912-ci ildə Sabirin bədii irsi həyat yoldaşı Billurnisə xanımın təşəbbüsü, Abbas Səhhət və Mahmudbəy Mahmudbəyovun redaktorluğu, eləcə də ictimai ianələr hesabına "Hophopnamə" adı ilə kitab halında nəşr edilib.

Mirzə Ələkbər Sabir 25 iyul 1911-ci ildə qaraciyər xəstəliyi səbəbilə doğma şəhəri Şamaxıda vəfat edib.

## LİBERİYA

Liberiya qərbi Afrikada yerləşən dövlətdir. Qərbdə Syerra - Leone, şərqdə Fil Dişi Sahili və şimalda Qvineya ilə həmsərhəddir. Cənubda Atlantik okeanına çıxışı var. Ölkənin paytaxtı və böyük şəhəri Monroviyadır. Rəsmi dili ingilis dilidir. Ərazisi 111369 kv. km. - dir. Əhalisinin sayı 4 937 000 nəfərdir. Pul vahidi Liberiya dollarıdır.

**Tarixi:** Arxeoloqların və antropoloqların tədqiqatlarına görə, XII əsrdə Liberiya ərazisinə Kpelle, Bassa, Kru, Qio və Mano tayfaları köçüb. Qəbilələrin miqrasiya prosesi 1375-ci ildə Mali İmperiyasının və 1591-ci ildə Sonqay imperiyasının (müasir Nigeriya, Niger və Mali əraziləri) süqutundan sonra daha çox artıb.



Liberiya ərazisinə yerləşən xalqlar qonşu xalqlarla və avropalılarla ticarət prosesində aktiv iştirak ediblər.

Liberiyanın dövlətçilik tarixi 1821-ci ildə başlayıb. Həmin zaman ABŞ-nin quldarlığa qarşı mübarizə aparan cəmiyyətlərinin təşəbbüsü ilə azad edilmiş qaradərililər Liberiya ərazisinə köçürülməyə başlayıb və 1822-ci ildə yerli qəbilə başçılarından 50 dollar qarşılığında aldıqları 13 000 kv. km-lik ərazidə "azad rəngli insanlar" ("free men of color") məskənini yaradıblar. 1824-cü ildə sözügedən məskənlər "Liberiya" adlanıb və həmin il Konstitusiya da qəbul edilib. 1828-ci ilə məskənin tərkibinə müasir Syerra Leone və Fil Dişi Sahilinin sahil hissələri daxil olub.

26 iyul 1847-ci ildə Liberiya Respublikası qurulub. Yeni dövlət Amerika modelini əks etdirib.

XIX əsrin sonunda Afrikanın müstəmləkə dövlətləri arasında bölünməsi nəticəsində Liberiya müstəqil dövlət olaraq qalıb.

Birinci Dünya Müharibəsinin əvvəlində Liberiya neytral olsa da, 1917-ci ildə Almaniyaya müharibə elan edib. Buna görə 1918-ci ildə almanlar ölkənin paytaxtı Monroviyanı bombalayıblar.

İkinci Dünya Müharibəsi başlayandan sonra Liberiya yenidən neytrallığını elan edib, lakin ölkə ərazisi ABŞ qoşunlarının Şimali Afrika ərazisinə daşınılması üçün istifadə edilib. 1944-cü ildə Liberiya Almaniyaya rəsmən müharibə elan edib.

12 aprel 1980-cı ildə Liberiyada dövlət çevrilişi baş verib. 1989-1996-cı və 1999-2003-cü illərdə ölkədə iki qanlı vətəndaş müharibəsi baş verib.

**Coğrafiyası:** Liberiya ərazisinin böyük hissəsini alçaq dağlar və sahil düzənlikləri təşkil edir, ölkənin ən yüksək dağı 1380 m. hündürlüyündə Vuteve dağıdır. Ölkə ərazisinin 18 faizi meşəlikdir. Liberiya dəmir filizi, almaz və qızıl ehtiyatları ilə zəngindir. Ölkə ərazisində Mano, Loffa və Setn-Pol çayları axır.

**İqtisadiyyatı:** Liberiya Afrikanın və dünyanın ən kasıb ölkələrindən biridir. Ölkə iqtisadiyyatının böyük hissəsini aqrar sektor təşkil edir: kənd təsərrüfatı ilə əhalinin 70 faizi məşğuldur və bu sektor ÜDM-in 36 faizini təşkil edir. Sənaye sektorunda əhalinin 8 faizi işləyir və ÜDM-in 16 faizini təşkil edir. İstehsal sənayesi zəif inkişaf edib və əsasən xammalın ilkin emalı ilə məşğuldur. Sabun, ayaqqabı və ərzaq məhsulları istehsal edən kiçik müəssisələr var. Liberiya rezin, taxta, dəmir filizi, almaz, kakao və qəhvə ixrac edir və yanacaq, maşın, nəqliyyat avadanlığı və qida məhsullarını idxal edir.

**Dövlət quruluşu:** Liberiya prezident respublikasıdır. Prezident sadəcə bir müddətə - 8 illiyinə seçilə bilər. Ölkənin prezidenti Cozef Boakaidir, vitse-prezident Ceremia Kunqdur. Liberiyanın yüksək qanunverici orqanı ikipalatalı parlamentdir. Struktur baxımından Amerika Konqresinə bənzəyir.

**Elm və təhsil:** Liberiyanın təhsil sistemi üç pillədən ibarətdir: dövlət tərəfindən maliyyələşdirilən məktəblərdəki 6 illik ibtidai təhsil, üçillik orta təhsil və ali təhsil. Liberiyada bir neçə nüfuzlu universitet fəaliyyət göstərir: Liberiya Universiteti - 1863-cü ildə təsis olunmuşdur və Qərbi Afrikada ən qədim ali təhsil müəssisələrindən biridir. 2019-cu ildə 18,753 tələbə təhsil alıb. Cuttington Universiteti - 1889-cu ildə yaradılıb və Sub-Saxara Afrikada ilk özəl, dördillik universitet olub. Afrika Metodist Episkopal Universiteti (AMEU): 1995-ci ildə təsis olunmuş və 5,000-dən çox tələbəsi vardır. Birləşmiş Metodist Universiteti (UMU) - 1998-ci ildə qurulmuş və 2016-cı ildə 9,118 tələbəsi olmuşdur .

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
" ს ა ქ ა რ თ ვ ე ლ ო "
"S A K A R T V E L O"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



TƏBİİ FƏLAKƏT

## GÜCLÜ YAĞIŞ NƏTİCƏSİNDƏ EVLƏR VƏ YOLLAR SEL SULARI ALTINDA QALIB



***Güclü yağışlar Adigeni Bələdiyyəsində problemlərə səbəb olub – evləri su basıb, yol infrastrukturu və kənd təsərrüfatı sahələrinə ziyan dəyib.***

Təbii fəlakət zamanı bələdiyyənin iki kəndinə ciddi ziyan dəydiyi bildirilir.

Məlumata görə, güclü yağışlar nəticəsində Qomaro və Şoka kəndlərini su basıb. Evlərə və həyətyanı sahələrə ziyan dəyib, mal-qara tələf olub, yol infrastrukturu zədələnib, kənd təsərrüfatı sahələri sel suları altında qalıb.

Əraziyə cəlb olunan xüsusi komissiya güclü yağışın vurduğu ziyanı qiymətləndirəcək, geoloqlar isə mövcud təhlükələri araşdıracaq. Təbii fəlakətdən zərər çəkmiş ailələr təhlükəsiz ərazilərə təxliyə olunub.

Təbii fəlakət Lentexi, Tsaqeri, Çoxatauri bələdiyyələrində və Baxmaro kurort zonasında da bir sıra ciddi fəsadlar törədib.

KRİMİNAL

## KEŞƏLİ KƏNDİNİN İKİ SAKİNİ 17 İL HƏBS CƏZASINA MƏHKUM EDİLİB

***Siqnaxi rayon məhkəməsi iki nəfəri qəsdən adam öldürməyə cəhddə təqsirli bilərək, hər birini 17 il müddətinə azadlıqdan məhrum edib.***

Bu barədə Baş Prokurorluq məlumat yayıb.

Prokurorluğun yaydığı məlumata görə, məhkəmə təqdim edilən sübutları tam şəkildə əsaslı hesab edərək hökm çıxarıb.

Bildirilir ki, hadisə 2024-cü il noyabrın 15-də Saqareco bələdiyyəsinin Keşəli kəndində baş verib. Məlumata görə, təqsirləndirilən şəxslər zərərçəkmişə bıçaqla ağır xəsarətlər yetiriblər. Zərərçəkmişə vaxtında tibbi yardım göstərildiyindən, onun həyatını xilas etmək mümkün olub.



Həmin şəxslərə qarşı Cinayət Məcəlləsinin 19-109-cu maddəsinin "i" bəndi ilə – yəni bir qrup şəxs tərəfindən qəsdən adam öldürməyə cəhd - ittihamı irəli sürülüb.

Məhkəmə ittihamları əsaslı hesab edərək hər iki şəxsi 17 il azadlıqdan məhrum edib.

YENİLİK

## SƏRİNKEŞ VƏ KONDİSİONERLƏRƏ ARTIQ EHTİYAC YOXDUR

***Tavandakı borularla qurulan innovativ soyutma texnologiyası səssiz işləməsi və aşağı enerji sərfiyyatı ilə Avropada getdikcə daha çox populyarlıq qazanır.*** Bu yenilik hazırda temperaturu effektiv şəkildə tənzimləyən ventilyator və kondisionerləri əvəz edir.

Soyutma sistemi sadə, lakin effektiv prinsip əsasında işləyir. Soyuq havadan daha yüngül və az sıxlığa malik olan isti hava tavana qalxır, burada isə soyuq su ilə dolu borularla qarşılaşaraq tez bir zamanda soyuyur.

Bu texnologiya, adətən kondisionerlərlə əlaqələndirilən daimi səs-küy və hava axını olmadan otaqda stabil və komfortlu temperatur saxlayır. Proses zamanı divarlar daha az istilik udur və bu da ümumilikdə daha sərin, rahat mühitin yaranmasına səbəb olur.

Bu cür sistemlər artıq Skandinaviya, Almaniya və İsveçrə kimi ölkələrdə geniş yayılıb. Ənənəvi sistemlərlə müqayisədə enerji sərfiyyatının 30%-ə qədər azalmasına nail olunur.

ABŞ və Fransada isə bu texnologiyanın tətbiqi yeni başlayıb və əsasən müxtəlif tipli binalarda həyata keçirilir.

## BAŞSAĞLIĞI

"Gürcüstan" qəzetinin kollektivi Tbilisi 64 saylı ictimai məktəbin müəllimi Abayət Qurbanovaya həyat yoldaşı

**Eldar Hüseyn oğlu Qurbanovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**



Qardabani sakinləri Tengiz Mirzəyev, Miqdad Süleymanov, Mədəd Həsənli, Rizvan İsayev, Tofiq Qasımov, Firdovsi İsgəndərov, Ramiz Musayev, Əsəd Əliyev və "Gürcüstan" qəzetinin Baş redaktoru Xaləddin Yolçuyev el ağsaqqalı Siyavuş Məmmədova həyat yoldaşı

**Şərqiyyə Şəmistan qızı Məmmədovanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

## AĞAC KOĞUŞUNDAKI DOST



Foto E.Şahvələdindir.

FAKT

## "SARPİ"DƏ BƏYAN OLUNMAMIŞ QIZIL ZİNƏT ƏŞYALARI MÜSADİRƏ OLUNUB

***"Sarpi" də 145 min laridən artıq bəyan edilməmiş qiymətli daşların gətirilməsi faktının qarşısı alınıb.***




Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin "Sarpi" gömrük - keçid məntəqəsinin əməkdaşları tərəfindən külli miqdarda bəyan olunmamış qiymətli daşların qanunsuz (gizli) ölkəyə gətirilməsi faktının qarşısı alınıb.

Əcnəbi vətəndaşa məxsus əl yükünə ətraflı baxış nəticəsində gömrük nəzarəti nəticəsində 145 503,62 lari dəyərində müxtəlif ölçülü brilyant qaşlar aşkar edilib.

Daşların ümumi çəkisi 31,97 qram, qiymətli daşların ümumi vahid ölçüsü isə 31 min milliqramı ötüb. İş materialları cavablandırılması üçün Maliyyə Nazirliyinin İstintaq Xidmətinə verilib.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

## "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayə-nizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürur-la dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslərfərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya **E-mail:Gurcustan_1921@mail.ru** elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzində abunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli - mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

**Müdiriyyət.**

**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Akaki Tsereteli pros. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.